

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 133 (23.044)

18 iyul 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ağbulaq Xizək Mərkəzinin təməli atılmışdır




Şahbuz rayonunun Ağbulaq kəndi geniş turizm potensialına malikdir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür.

İyulun 17-də Ağbulaq kəndində Xizək Mərkəzinin təməlatma tədbiri olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, mərkəzdə ümumi uzunluğu 1500, eni isə 30 metr olan dağ-xizək enişi, kanat yolu, xizəksürmə məktəbi, əyləncə və uşaq parkları yaradılacaq, süni qaryaratma sistemləri qurulacaqdır. Mərkəzin əsas infrastrukturu kanat yoludur. Uzunluğu 952 metr olan kanatın başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metr olacaqdır. Kanat yolunda hər biri 4 yerlik olmaqla 58 oturacaq quraşdırılacaqdır ki, bu da saatda 1000-dən artıq insana xidmət etməyə imkan verəcəkdir. Əyləncə və uşaq parklarında, eləcə də başlanğıc sahədə 231 metrlik konveyer xətləri yaradılacaqdır. Mərkəzin lazım olan qar örtüyünü təmin etmək üçün 26 sabit və 2 hərəkətli süni qaryaratma sistemi qurulacaqdır. Həmçinin ərazidə turistlərin istirahəti üçün də şərait yaradılacaq, xidmət sahələri istifadəyə veriləcəkdir.






Tikinti işləri dağ-xizək mərkəzlərinin yaradılması sahəsində böyük iş təcrübəsi olan Fransanın “MND” şirkətinin layihəsi əsasında həyata keçiriləcək. Şirkətin mühəndisi Xavier Goya demişdir ki, dağ xizəkçiliyinin inkişafı üçün təbii şərait mühüm amildir. Ərazinin relyefi və iqlim xüsusiyyətləri bunun üçün geniş imkanlar açır. Layihələndirmə işləri aparılarkən bu amil əsas götürülmüşdür. Şirkət 35 ildir, dünyanın bir çox ölkəsində dağ-xizək mərkəzlərinin yaradılması layihəsini həyata keçirir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Fransanın “MND” şirkətinin mühəndisi Xavier Goya beton qarışığını bünövrəyə tökərək mərkəzin təməlini qoymuşlar.

Ali Məclisin Sədri tikinti işləri aparılarkən keyfiyyət amilinin əsas götürülməsi və mühəndis-texniki tələblərə əməl edilməsi, təbiətə ziyan vurulmaması və yaşıllıqların qorunması barədə tapşırıqlar vermişdir.

Həmin gün Ali Məclisin Sədri Ağbulaq kəndində turizmin inkişafı sahəsində həyata keçirilən digər tədbirlərlə də maraqlanmışdır.





Qeyd olunmuşdur ki, muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaqda bu məqsədlə kompleks işlər görülür. Bu ildən etibarən kənddəki bütün evlərin dam örtüyü dəyişdirilir, fasadlar yenilənir, yararsız tikililər sökülür, həyətlərdə abadlıq işləri aparılır və çəpərlənir, lazımi kommunal-məişət şəraiti yaradılır. Yaşayış məntəqəsindən kənarda isə yeni təsərrüfat binaları tikilir. Həyata keçirilən tədbirlər, zəngin təbii turizm ehtiyatları və müasir sosial infrastruktur Ağbulaqda kənd turizminə üstünlük verənlər üçün ideal şərait yaradır.

Ali Məclisin Sədri abadlaşan kənd evlərində olmuş, sakinlərlə görüşmüşdür.

Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mətləb Məmmədov sakinlər adından minnətdarlıq edərək demişdir ki, Ağbulaq kəndi müasir inkişaf dövrünü yaşayır. Kənddə aparılan kompleks quruculuq işləri və yaradılan şərait sakinlər tərəfindən razılıqla qarşılanır. Yaradılan şəraitin nəticəsidir ki, məskunlaşma xeyli artıb. Artıq Ağbulaq turizm kəndidir. Sakinlər öz evlərini turistlərə kirayə verməklə və onları gündəlik qida məhsulları ilə təmin etməklə yaxşı gəlir götürəcəklər. Bütün bunlar kənd əhalisinin rifahının daha da yaxşılaşmasına hesablanıb. Hər bir sakin də çalışır ki, bu işə öz töhfəsini versin.

Ali Məclisin Sədri kənddə aparılan abadlıq işlərinin davam etdirilməsi, yaradılan şəraitdən səmərəli istifadə olunması və payız aylarında iməciliklərin keçirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikada özəl sektorun uğurları artır

***İşgüzar fəallığın və sərbəst iqtisadi mühitin bərqərar olduğu bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyəti əsas hərəkətverici qüvvə kimi cəmiyyətin iqtisadi və mədəni inkişafında mühüm rola malikdir. Tarixən sınaqdan keçmiş və demək olar ki, bütün sahələrdə insan həyatını dəyişdirən, innovativ yeniliklərin və yüksək texnologiyanın tətbiqi ilə ümumi inkişafı şərtləndirən sahibkarlıq, bu mənada, həm də yaradıcılıq sahəsidir. Sahibkarlığın inkişafı və onun rəqabətqabiliyyətliliyinin artırılması üçün göstərilən dövlət dəstəyi isə cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasında mühüm rola malikdir.***



Müasir dünya iqtisadiyyatı qlobal güclərin maraqlarının kəsişməsi fonunda kəskin rəqabət və yüksəkriskli proqnozlarla xarakterizə olunur. Təbii resursların getdikcə tükənməsi, istehsalda texnologiyaların tətbiqi və eyni zamanda məşğulluq məsələlərinin həlli, bu mənada, milli iqtisadiyyatların daha sağlam böyüməsi üçün daimi yollar axtarılmasını gündəmə gətirir. Bu baxımdan ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə iqtisadi təhlükəsizliyimizin daha da möhkəmləndirilməsi yolunda regional inkişafa verilən diqqət Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial-iqtisadi inkişafın əsas prioritetlərindən biri kimi öz aktuallığını saxlayır. Cari il fevral ayının 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı dediyi kimi: ***“Bu gün əsas məqsəd ondan ibarətdir ki, sahibkarlıq mühiti daha da genişlənsin. Daxili bazarda yerli məhsullar hesabına bolluq yaradılsın. Yeni iş yerləri açılsın, məşğulluq təmin edilsin. Muxtar respublikanın ixrac imkanları artsın”.***

Muxtar respublika sahibkarları qarşısında çox sadə, ancaq mahiyyətcə dərin vəzifələr qoyulub. O vəzifələr ki indi bunlarsız blokadada olan Naxçıvanın çox qısa bir müddətdə əldə etdiyi nailiyyətlərdən danışmaq mümkün olmazdı. Qazanılmış uğurlar isə, sözün əsl mənasında, parlaq olub, qədim diyarı bütün ölkəmizin regionları arasında liderlik mövqeyinə yüksəldib. Muxtar respublikada sahibkarlığın inkişafının dəstəklənməsi onun iqtisadi potensialını artırmış, bunun nəticəsində Azərbaycan Respublikası Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

Son illər muxtar respublikada özəl sektor tərəfindən həyata keçirilən layihələr region iqtisadiyyatının şaxələndirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayıb. Rəqabət mühiti şəraitində sahibkarlara dəstək verilməsi, işgüzar fəallığın artırılması məqsədilə vahid konfederasiya ətrafında onların könüllü ittifaqının yaradılması qarşıya qoyulmuş məqsədlər baxımından əhəmiyyətli olub. 2006-cı ildən bəri fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası işini bu istiqamətdə quraraq sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərməkdədir.



Hazırda Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası 29 üzvü özündə birləşdirir. Bu sahibkarlar arasında sənaye və ərzaq məhsulları, mebel və tikinti materialları istehsalı, tibb və ticarət xidmətləri üzrə geniş profildə fəaliyyət göstərən iş adamları vardır. Muxtar respublikamızın müasir sosial-iqtisadi inkişafına daha yaxşı töhfə vermək üçün bu sahibkarları bir qurum altında birləşdirən konfederasiya öz işini günün tələbləri və verilmiş tapşırıqlar istiqamətində qurub. Bu barədə həmsöhbət olduğumuz konfederasiya sədri, “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov bildirdi ki, könüllülük əsasında belə bir təşkilatda birləşən sahibkarlarımızın məqsədi, şübhəsiz ki, ilk növbədə, doğma Naxçıvanımızın daha da çiçəklənməsi üçün yeni, səmərəli layihələrlə çıxış etmək, daxili bazarda məhsul bolluğu yaratmaq, daha keyfiyyətli xidmətlər təşkil etməkdir. Təkcə ötən il muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 60 layihə üzrə istehsal və xidmət obyektlərinin fəaliyyətə başlaması davamlı inkişafın əsas göstəricilərindəndir. Kiçik və orta sahibkarlığın inkişafının həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətinə çevrildiyi muxtar respublikada Sahibkarlar Konfederasiyası biznes fəaliyyətinə başlamaq istəyən iş adamlarına düzgün istiqamət verməyi özünün əsas vəzifələrindən biri hesab edir. Bu baxımdan sahibkarlarımızın hüquqlarını qorumağa, dövlət orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edərək yaradılmış şəraitdən maksimum istifadə olunmasına kömək göstərməyə çalışır.

“Ötən dövrdə Naxçıvanda fəaliyyət göstərən hər bir iş adamı dövlət dəstəyindən faydalanaraq öz layihələrini reallaşdırmaqda böyük nailiyyətlər qazanıb. Bu fikirləri sahibkarı olduğu “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının uğurları ilə əsaslandıran konfederasiya sədri bildirdi ki, yaradılmış şərait onların da səmərəli fəaliyyəti üçün stimul olub. Belə ki, hazırda 22 əsas və bir neçə törəmə şirkəti özündə birləşdirən “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqı ticarət-kommersiya, ərzaq və qeyri-ərzaq məhsulları istehsalı, sənaye və xidmət sahələri üzrə fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac olunur. Bu mənada, bazar iqtisadiyyatında daimi olaraq müəyyən problemlərin həll olunmasının, sahibkarlardan isə təhlili araşdırmalar aparılmasının tələb olunduğu bir mühitdə biznesə yeni başlayan digər iş adamlarına metodoloji dəstək verilməsi də sahibkarlıq konfederasiyası olaraq onlar qarşısında əsas vəzifələrdən biridir. Bu məqsədlə hər bir sahibkarın yeni bazar imkanlarının qiymətləndirilməsi və situasiyadan düzgün nəticə çıxarılması üçün ilk olaraq informasiya təminatına ehtiyacı vardır,” – deyən konfederasiya sədri işgüzar fəaliyyət üçün tələb olunan investisiyaların və görüşlərin əhəmiyyətini vurğuladı. Təkcə ötən il Naxçıvanda fəaliyyət göstərən sahibkarlara 10 milyon manatdan çox kreditlərin verilməsi, ölkə daxilində və xaricdə keçirilən 33 tədbirdə 150 sahibkarın iştirakının təmin olunması onların uğurlu fəaliyyətinə dəstək olub. Cari ildə də Naxçıvanda fəaliyyət göstərən 11 sahibkara verilmiş 5 milyon manatdan çox kredit vəsaiti sənaye və kənd təsərrüfatı məhsulları istehsalı üzrə müxtəlif sahibkarlıq qurumlarının, habelə ailə təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməsinə mühüm dəstək olacaq.

Muxtar respublikada hər bir sahibkarın uğuruna xüsusi diqqət göstərilir. Onların səmərəli fəaliyyətləri dövlət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 24 may tarixli Sərəncamı ilə üç nəfər naxçıvanlı sahibkarın Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunması Naxçıvanda fəaliyyət göstərən bütün sahibkar təbəqəsi təmsilçilərinin əməyinə verilən qiymət kimi hamının sevincinə səbəb olub.

Konfederasiya sədri ilə söhbətimizdən bu qənaətə gəlirik ki, ötən dövrdə onların fəaliyyətlərini uğurlu saymaq olar. Belə ki, Naxçıvandakı sahibkarlar artıq dünyanın bir çox biznes qurumları ilə sərbəst əlaqələr saxlayır, sərgi və forumlara dəvətlər alır, işgüzar görüşlər keçirirlər. Bütün bunlarla əlaqədar konfederasiyanın *http://nsk.org.az/* saytında müvafiq məlumatlar da əldə etmək olar. İş adamlarının müasir dünyadakı biznes mühitinin mənimsənilməsi baxımından maarifləndirilməsi də diqqətdə saxlanılır ki, bu da onların gələcəkdə daha uğurlu layihələr həyata keçirmələri üçün çox əhəmiyyətlidir. Çünki uğurlarımız artdıqca irəlidə bizi daha yeni layihələr gözləyir.

**✍ Əli CABBAROV**

## *“Kənd təsərrüfatı məhsulları istehsalında yeni texnologiyaların tətbiqinin əhəmiyyəti”* mövzusunda tədbir

Şərur rayonunda keçirilən tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq bildirib ki, əhalisinin 80 faizinin bitkiçilik və heyvandarlıqla məşğul olduğu Şərur rayonunda hər il kənd təsərrüfatı məhsulları istehsalında artım qeydə alınır. Bu da onunla bağlıdır ki, aqrar sahənin inkişafına qayğı göstərilir. Son illər Şərurun muxtar respublikamızın ən iri meyvəçilik, taxılçılıq və kartofçuluq rayonuna çevrilməsi məhz bu qayğının nəticəsidir.



Rayon İcra Hakimiyyətinin başçısı kənd təsərrüfatının digər sahələrinin də intensiv amillər hesabına inkişafı üçün rayonda böyük imkanlar olduğunu vurğulayıb və bu potensialı hərəkətə gətirmək üçün görülən tədbirlərdən bəhs edib, aqrar sahənin daha da inkişafı və təkmilləşdirilməsində belə tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov “Kənd təsərrüfatında intensiv becərmə texnologiylarının tətbiqinin əhəmiyyəti, kənd təsərrüfatının inkişafı, əhalinin məşğulluq səviyyəsinin artırılmasında ailə təsərrüfatlarının rolu” mövzusundakı çıxışında qeyd edib ki, dövlət qayğısı və dəstəyi sayəsində muxtar respublika iqtisadiyyatının mühüm sahəsi olan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilib.

Qeyd olunub ki, istehsal olunan məhsulların rəqabətə davamlılığı artır, ixrac imkanları genişlənir. Bu da, bütövlükdə, bölgənin ərzaq təhlükəsizliyinin təmin olunmasına öz bəhrəsini verir. Hazırda yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması əsas məqsəd kimi qarşıya qoyulub. Bu sahədə innovasiyanın tətbiqi, fermerlərə dəstək, aqrar sahədə düzgün idarəçilik kənd təsərrüfatının əsas prinsipləridir.

Nazir onu da əlavə edib ki, Şərur rayonunun kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi, qarşıya qoyulan hədəfə nail olmaq üçün böyük imkanları vardır. Bunun üçün ailə təsərrüfatlarının daha da genişləndirilməsinə diqqət artırılır, xəstəliklərə və zərərvericilərə qarşı, əsasən, aqrotexniki mübarizə tədbirləri tətbiq olunur. Fəaliyyətdə olan soyuducu anbarlar ilin bütün fəsillərində əhalinin təzə meyvə və tərəvəz məhsulları ilə təmin olunmasına imkan verir, aqrolizinq xidmətindən, əkinəyararlı torpaqlardan düzgün istifadə də bu sahədə xüsusi əhəmiyyət kəsb edir.

Bildirilib ki, muxtar respublikamızın, eləcə də rayonumuzun torpaq-iqlim şəraiti təkrar əkinlər üçün münasibdir. Ən çox təkrar əkilən məhsullar isə xiyar, lobya, kartof, kələm, yerkökü, ərzaq çuğunduru və səbzə bitkiləridir. Biçilən taxıl sahələrinin yerində kartofun yay əkini dəfələrlə sınaqdan çıxarılıb və bu gün də həmin üsuldan istifadə olunur. Bu məqsədlə seçilmiş sahələr üzvi və mineral gübrələr verildikdən sonra 23-25 santimetr dərinlikdə şumlanmalı, qaysaq və alaq otları əmələ gəldikdə kultivasiya çəkilməlidir. Əkin zamanı tezyetişən sortlardan istifadə edilməli, hektara səpin norması 2,5-3 ton olmalıdır.

Bəhruz Bayramov daha sonra ailə təsərrüfatlarının yaradılmasının məhsul bolluğunda və özünüməşğulluğun təmin olunmasında rolundan bəhs edib, bu sahədə rayonda həyata keçirilən tədbirlərdən, qarşıda duran vəzifələrdən danışıb.

Həmin gün tədbir iştirakçıları rayonun Ələkli kəndində torpaq sahibkarı Elşən Bayramovun kartof sahəsində məhsulun yeni texnologiyalarla yığılması ilə tanış olublar. Məlumat verilib ki, fermer 1,2 hektar sahədə məhsul yetişdirib və artıq yığım başa çatmaq üzrədir. İlkin hesablamalara görə, orta məhsuldarlıq, təxminən, 210 sentnerdir. Toplanmış məhsulun xeyli hissəsi saxlanmaq üçün soyuducu anbara təhvil verilmişdir. Fermerə təkrar əkinlər üçün tövsiyələr verilib.

**Elman MƏMMƏDOV**

## Taxıl biçini mütəşəkkilliklə davam edir

***Hazırda muxtar respublikamızda taxıl biçininin ən məsul dövrüdür. Məhsul yığımında qarşıya çıxa biləcək çətinliklərin aradan qaldırılmasını təmin etmək üçün rayonlarda qərargahlar təşkil edilib. Biçin kampaniyasına kifayət qədər maşın və mexanizmlər cəlb olunub.***



Taxılçılığın inkişafına böyük önəm verilən rayonlarımızdan biri Ordubaddır. Bölgənin məhsuldar və münbit torpaq sahələri burada yüksəkkeyfiyyətli taxıl istehsalına imkan verir.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, hər il taxıl əkini sahələrinin genişləndirilməsi, məhsuldarlığın artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu da bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Kombaynçılar və mexanizatorlar yaradılan bu şəraitdən səmərəli istifadə edirlər.

Məlumatda o da bildirilir ki, rayonda 1605 payız, 73 hektar yazlıq olmaqla, ümumilikdə, 1678 hektar sahədə taxıl əkilib. Bunun 780 hektarını buğda, 898 hektarını arpa təşkil edir. 16 iyul 2018-ci il tarixə rayonda 1674 hektar sahənin taxılı tədarük olunub. 4602 ton məhsul toplanılıb. Orta məhsuldarlıq 27,5 sentner təşkil edib. Rayonun Dəstə, Vənənd, Düylün, Aşağı Əylis kəndlərində məhsuldarlıq daha yüksək olub.

Culfa Rayon İcra Hakimiyyətindən isə qəzetimizə bildirdilər ki, torpaq mülkiyyətçiləri 5 min 963 hektar sahədə payızlıq, 153 hektar sahədə isə yazlıq taxıl olmaqla, ümumilikdə, 6 min 116 hektar sahədə taxıl əkini aparıblar. Bunun 4 min 837 hektarı buğda, 1279 hektarı arpadır. İyul ayının 16-na olan məlumata görə, 6 min 47 hektar sahədə taxıl biçilib. Bunun da nəticəsində 17 min 352 ton məhsul istehsal edilən sahələrdə orta məhsuldarlıq 28,7 sentner olub. Sahələrə 20-yə yaxın kombayn çıxarılıb. Rayonun Bənəniyar, Yaycı, Ərəzin, Göydərə, Camaldın kəndlərində məhsuldarlıq yüksəkdir.

Ümumilikdə, bu il muxtar respublika üzrə 32 min 483 hektar sahədə taxıl biçini aparılacaq. İyul ayının 16-na olan məlumata görə artıq 24 min 245 hektar sahədə biçin başa çatıb. 72 min 623 ton məhsul istehsal olunub. Hektarın orta məhsuldarlığı 30 sentnerdir.

Taxıl biçini kampaniyası davam edir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr, Təhsil Nazirliyinin fəaliyyətində yol verilən nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub

*İyulun 17-də Təhsil Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr, Təhsil Nazirliyinin fəaliyyətində yol verilən nöqsanlar və qarşıda duran vəzifələrə bağlı kollegiya iclası keçirilmişdir.*



Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov kollegiya iclasında məruzə ilə çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 200-dən çox məktəb binası tikilib istifadəyə verilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Bu işlər 2018-ci ildə də davam etdirilmişdir. 2018-ci ilin birinci yarısında Naxçıvan şəhər 6 nömrəli, Şərur rayon Ərəbyengicə, Culfa rayon Dizə kənd tam orta məktəbləri və Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar istifadəyə verilmiş, Naxçıvan şəhər 5 nömrəli, Şərur rayon İbadulla, Kosacan, Kərimbəyli, Babək rayon Aşağı Buzqov, Yuxarı Buzqov, Ordubad rayon Dəstə, Culfa rayon Qazançı kənd tam orta məktəbləri, eyni zamanda Ordubad Rayon Uşaq-Gənclər İdman Məktəbi, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi və Texniki Yaradıcılıq Mərkəzi üçün binaların tikintisi davam etdirilmişdir.

Təhsil sistemində aparılan islahatlar təkcə məktəb tikintisi ilə yekunlaşmamış, tikilən və ya əsaslı şəkildə yenidən qurulan təhsil müəssisələrinin maddi-texniki bazaları da gücləndirilmiş, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. Belə ki, ümumtəhsil məktəblərində 650-dən çox elektron lövhə quraşdırılmış və təhsil müəssisələrinə 4440 dəst kompüter verilmişdir ki, onların da 3368-i internet şəbəkəsinə qoşulmuşdur.

Vurğulanıb ki, muxtar respublikada təhsilin inkişafı istiqamətində mühüm qərarlar qəbul edilmiş, yüksək şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasında mühüm rol oynayır.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən isə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslər təşkil edilir ki, bu da ümumtəhsil məktəblərində şagirdlərin bilik səviyyəsinin artmasına öz müsbət təsirini göstərir. Bununla yanaşı, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası məhdud fiziki imkanlıların təhsilə cəlbi üçün geniş imkanlar yaratmışdır.

Qeyd olunmuşdur ki, muxtar respublikanın ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlər də dövlət qayğısı ilə əhatə olunmuşdur. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" müvafiq sərəncamları ilə müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları isə orta hesabla 2 dəfə artırılmış, eləcə də ixtisaslı kadrların hazırlıq səviyyəsinin artırılması diqqətdə saxlanılmışdır.

Təhsil naziri qeyd etmişdir ki, muxtar respublikamızda təhsilin inkişafı üçün yüksək şərait yaradılmasına baxmayaraq, çox təəssüf ki, bu imkanlardan səmərəli istifadə olunmamışdır. Təhsil Nazirliyinin fəaliyyəti düzgün qurulmamış, təhsillə bağlı qanunların, normativ-hüquqi sənədlərin tələbləri pozulmuşdur. Kadr işi düzgün aparılmamış, pedaqoji kadrların yerləşdirilməsində, diaqnostik qiymətləndirilmənin aparılmasında, şahmat sertifikatlarının verilməsində, müəllimlərin dərs yükü normalarında, əməkhaqqının hesablanması və ödənilməsində, kompensasiyaların hesablanmasında, məktəbdənkənar təhsil müəssisələrində dərnəklərin təşkilində, attestatların verilməsində, eksternat qaydasında imtahanların keçirilməsində ciddi nöqsanlara yol verilmiş, dövlət büdcəsi vəsaitinin izafi xərclənməsi halları baş vermişdir.

Sonra Təhsil Nazirliyinin fəaliyyətində olan nöqsanlar müzakirə olunmuşdur. Məruzə ətrafında Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov, Şərur Rayon Təhsil Şöbəsinin müdiri Tuncay Cəfərov, Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinin direktoru Rafail Abdullayev və Naxçıvan Muxtar Respublikası Turizm-Diyarşünaslıq Mərkəzinin direktoru Murad Babayevin çıxışları olub.

Kollegiyada sadalanan nöqsanlar və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında verilmiş tapşırıqlarla bağlı qərar qəbul edilmiş, buraxılmış nöqsanlarla əlaqədar bir qrup təhsil işçisinə müvafiq intizam tənbeh tədbiri tətbiq olunaraq işlərində dönüş yaratmaları üçün vaxt verilmişdir.

Sonda təhsil naziri kollegiya iclasına yekun vuraraq qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd etmişdir ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Təhsil Nazirliyinin fəaliyyətindəki nöqsanların aradan qaldırılması ilə bağlı tapşırıqlar verərək demişdir: ***"Təhsil Nazirliyi təhsil müəssisələrində tədrisin keyfiyyətinə nəzarəti gücləndirməli, fənn laboratoriyalarının imkanlarından düzgün istifadə edilməli, tədrisdə informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə olunmalıdır. Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı dərslərin təşkilində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqə davam etdirilməli, nümunəvi dərslərin təşkili diqqətdə saxlanmalıdır".***

Təhsil Nazirliyi bundan sonrakı fəaliyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələri əsasında quracaq, üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi, mövcud nöqsanların aradan qaldırılması, izafi xərclənən dövlət büdcəsi vəsaitinin geri qaytarılması istiqamətində fəaliyyətini gücləndirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Tarixdən bu günə*

# Məhəllələr tarixə iz salan məkanlardır

***Naxçıvan şəhərində yaşı yüz illərdən çox olan məhəllələr vardır. Şəhər binə olandan sonra müxtəlif tayfalar ayrı-ayrı məhəllələrdə toplanmış, məhəllə adları da buradan ortaya çıxmışdır. Əlixan, Şahab, Sarvanlar, Ağamalı, Çuxur kimi məhəllələr öz adlarını ya tarixi şəxslərin, ya da o məhəllədə yaşayanların əsas məşğuliyyətindən götürüblər. Budəfəki yazımızda şəhərimizin qədim məhəlləsi olan Şahab haqqında söhbət açacağıq.***



Məhəllənin döngə və tinləri, ərazidəki qədim abidələr buranın tarixi keçmişindən xəbər verir. Şahabın tarixi haqda mərhum dilçi-alim Adil Bağırov "Naxçıvanın urbanonimləri" kitabında ətraflı məlumat verir: "V.Qriqoryev və İ.Şopen XIX əsrdə Naxçıvan şəhərinin əsas kvartallarından birinin Şahab məhəlləsi olduğu haqda məlumat verirlər. Tədqiqatçı Ə.Əliyev yazır ki, "Şahab məhəlləsi çox güman ki, ərazisində vaxtilə gur su, yaxşı su olmasına görə belə adlandırılmışdır. Şahab fars dilində "gur su, keyfiyyətli su" mənasında işlənir". Ə.Əliyevdən fərqli olaraq R.Salayeva Yusif Küseyir oğlu türbəsi ətrafında əhalinin uçan ulduzu müşahidə etdiyi üçün Şahab adını "uçan ulduz", "meteorit" mənalarında açıqlayır. Fikrimizcə, Şahab sözünün mənşəyini "uçan ulduz" və ya "gur su" ilə bağlamaq özünü doğrultmur, çünki məhəllə adı Kəngərlilərin Şahbanlular tayfasının adı əsasında yaranmışdır. Şahbanlular Kəngərlilərin böyük tayfalarından biri olmuş və Naxçıvan şəhərində yaşamışlar. Buna görə məhəlləyə Şahbanlular adı verilmiş və toponim canlı danışıq dilində tədricən Şahab şəklinə düşmüşdür".

Naxçıvan şəhərində aparılan quruculuq işləri bu məhəlləni də əhatə edib, küçələr abadlaşıb, yol kənarlarına ağaclar əkilib, səkilərə daş düzülüb. Məhəllənin bir guşəsində Yusif Küseyir oğlu türbəsi əzəmətlə ucalır. "Atababa günbəzi" adı ilə tanınan bu abidə tanınmış memar Əcəmi Naxçıvani tərəfindən 1162-ci ildə tikilib, divarları həndəsi naxışlarla bəzədilib. Sərdabə və yerüstü qüllələri hissədən ibarət olan türbənin kitabəsində onun kimin şərəfinə və hansı tarixdə inşa olunduğu öz əksini tapıb: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Digər kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılıb. Dövlətimizin diqqət və qayğısı nəticəsində əsaslı surətdə bərpaolunan memarlıq incisi bu gün özünəməxsus görkəmi ilə şəhərimizin gözəlliyinə əlavə rəng qatır.

Məhəllədə yerləşən digər bir tarixi abidə isə Pirqəmiş məscididir. XVII əsrə aid dini-mədəni tikili özünəməxsus quruluşu ilə seçilir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 2010-cu il iyunun 3-dən bu məscid yeni görkəmi ilə qapılarını sakinlərin üzünə açıb. Burada insanların rahat şəkildə ibadət etməsi, eləcə də yas mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb. Məsciddə bərpa və tərtibat işləri klassik Şərq üslubunda həyata keçirilib, üzərində incə memarlıq elementləri öz əksini tapıb.

Pirqəmiş məscidinin önündə məhəllənin yaşlı sakini Abbas əmi ilə çinar altında oturub söhbət etdik. Abbas əmi bu məhəllənin keçmişindən, bu günündən danışdı, xatirələrini bizimlə bölüşdü. Dedi ki, şəhərin Xıncab, Qurdlar və digər məhəllələri kimi, Şahab məhəlləsinin sakinləri də bu günün özündə adət-ənənələrini yaşatmağa çalışırlar. Bu məhəllədə də xüsusi qaydalar olub və həmin qaydalara bu gün də əməl edilir. Məhəllə sakinləri bəzi illərdə susuzluqdan, bəzi illərdə qıtlıqdan əziyyət çəkiblər. Ancaq heç vaxt Şahabdan köçüb getməyi düşünməyiblər. İndi məhəllədə hər cür şərait vardır. İnsanlar rahat şəraitdə, firavanlıq içində yaşayır. Əvvəllər Şahabdakı əksəriyyət evlər möhrədən idi. İndi burada müasir üslublu yaraşıqlı evlər tikilib.

Məhəllənin digər bir sakini 80 yaşlı təqaüdçü Zərifə Həsənova bildirir ki, uzun illərdir, burada yaşayır. Onun dediklərindən:

– Qohum-əqrəbamızın əksəriyyəti bu məhəllədə yaşayır. Mən də burada dünyaya göz açmışam. Məhəllədə hər kəs birbirinə mehriban münasibət göstərir, sevinci də, kədəri də bölüşürlər. Şahabda ağsaqqal nəsihətinə, ağbirçək öyüdünə hər zaman hörmət və ehtiramla yanaşılıb. Əvvəllər yolumuz bu qədər abad, döngələrimiz belə geniş olmayıb. Azacıq yağış yağan kimi küçələrdə yerimək mümkün olmur, qış aylarında uşaqlarımız məktəbə, biz böyüklər isə işə yubanardıq. Su sarıdan da az əziyyət görməmişik. Qıtlıq çəkdiyimiz həmin illər yaxşı yadımdadır. O zamanlar hərə əlinə bir-iki qab götürər, çeşmədən su gətirməyə gedərdik. Su və kanalizasiya xətlərinin çəkilişindən sonra insanların rahatlığı da tam təmin olunub. Şükürlər olsun ki, indi şəraitimiz yaxşı, ruzimiz bol, yolumuz rəvandır. Buna görə dövlətimizə minnətdarlıq edirəm.

...Şəhərimiz böyüdükcə, əhali artdıqca məhəllələrin də siması dəyişir. Şahab da artıq gözəlləşən abad məhəllələr sırasındadır.

**Nail ƏSGƏROV**

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri Fizzə Quliyevanın "Şamil Qazıyevin həyat və yaradıcılığı" adlı monoqrafiyası işıq üzü görüb.***

*Yeni nəşrlər*

# "Şamil Qazıyevin həyat və yaradıcılığı" adlı monoqrafiya çapdan çıxıb




Yeni nəşr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 1 fevral tarixli Sərəncamına əsasən yubiley dövlət səviyyəsində qeyd olunan, ömrünün 50 ilini təsviri sənətə və teatr sahəsinə həsr edən görkəmli rəssam, Əməkdar incəsənət xadimi Şamil Qazıyevin zəngin bədii irsinin təbliği baxımından əhəmiyyətlidir.

Bölmənin sədri, akademik İsmayıl Hacıyevin elmi məsləhətliyi ilə işıq üzü görən monoqrafiyada çoxsaylı arxiv sənədləri və tədqiqatçıların fikirləri əsasında Naxçıvanın keçmiş tarixini, mədəniyyətini, adət-ənənələrini əsərlərində tərənnüm edən Şamil Qazıyevin həyat və yaradıcılıq yolu tədqiq edilib.

Müəllif "Köhnə Naxçıvan" silsiləsinin etnoqrafik zənginliyini XX əsr Azərbaycan mədəniyyətinin, Naxçıvan diyarının xalq məişəti ənənələrinin tədqiqi baxımından dəyərləndirib.

# *"Xəbərlər"* jurnalının növbəti sayı işıq üzü görüb

***AMEA Naxçıvan Bölməsinin ildə dörd dəfə elmi ictimaiyyətə təqdim etdiyi "Xəbərlər" jurnalının növbəti sayı işıq üzü görüb.***




Təbiət və texniki elmlər sahəsini əhatə edən jurnalın yeni sayında elm və təhsil müəssisələrində çalışan əməkdaşların apardıqları tədqiqatların nəticələri kimya, biologiya, fizika, astronomiya bölmələrində işıqlandırılıb.

Jurnalda "Naxçıvan Muxtar Respublikası yeraltı sularının mənşəyi və formalaşma şəraiti", "Naxçıvan Muxtar Respublikası şəraitində payızlıq buğdaların abiotik amillərə qarşı davamlılığının öyrənilməsi", "Naxçıvan Muxtar Respublikası şəraitində yonca bitkisi xəstəliklərinin məhsuldarlığa təsirinin öyrənilməsi", "Hündürlükdən asılı olaraq Naxçıvan Muxtar Respublikasının çaylarının enerji ehtiyatları" və digər məqalələr əksini tapıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

Yurdumuzun nemətləri

# Nehrəm qarpızı

***Qədim diyarımız zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, həm də təbiətin bu torpağa bəxş etdiyi əvəzolunmaz nemətləri ilə məşhurdur. Muxtar respublikamızın özünəməxsus dadlı meyvələri, bostan bitkiləri Azərbaycanda, eləcə də xarici ölkələrdə şöhrət qazanıb. Bu gün ölkə bazarlarında Naxçıvan duzu, göycəsi, Ordubad limonu, əriyi, Üstüpü kələmi, Bənəniyar üzümü, Şahtaxtı tutma qovunu, Nehrəm qarpızı və saymaqla bitməyən onlarla belə kənd təsərrüfatı məhsulu alıcıların tələbatının yüksək olduğu nemətlər sırasındadır.***



Bu gün Naxçıvan-Culfa magistral avtomobil yolunun kənarlarında qurulmuş piştaxtalarda istədiyin çəkidə Nehrəm qarpızı, yemişi almaq mümkündür. Yolboyu piştaxtalar üzərinə səliqə ilə düzülmüş qarpızlar, yemişlər buradan ötənlərin diqqətini çəkir. Sürücülərin əksəriyyəti avtomobilini saxlayıb, torpaq mülkiyyətçilərindən məhsulların qiymətini soruşur, istədiklərini münasib qiymətə aldıqdan sonra yollarına davam edirlər. Biz də piştaxtalara yaxınlaşıb, satıcılarla söhbətləşirik.

Torpaq mülkiyyətçisi Nəcəf Həmzəyevlə söhbət zamanı öyrənirik ki, buradakı satıcıların, demək olar ki, hamısı bostançılıqla məşğul olan ailələrin üzvləridir. Onlar bu sahədən yaxşı qazanc əldə edir, ailəsinin ehtiyaclarını öz halal zəhmətlərinin bəhrəsi ilə ödəyirlər. Uzun illərdir ki, 15 hektara yaxın sahədə qarpız, yemiş yetişdirməklə məşğul olan mülkiyyətçi bostanında yetişdirdiyi məhsullardan ağızdolusu danışır: “Aprel ayının sonu, may ayının əvvəllərində bu məhsulun əkininə başlayırıq. Kollar çiçəkləyənə qədər bir neçə dəfə su veririk. 3-4 dəfə tağları alaq otlarından təmizləyir, kolların diblərini boşaldır, vər qoyuruq. Əkinlərə aqrotexniki qaydada qulluq göstəririk. Ötən il bol məhsul əldə etmişdim, qazancım da kifayət qədər oldu. Bu il də zəhmətimiz hədər getmədi, sahələrdə bol məhsul yetişib. İnanırıq ki, yaxşı qazanc sahibi olacağıq”.

Həmsöhbətim qarpızın becərilmə qaydalarından da söhbət açdı. Dediyinə görə, əvvəllər bir sıra problemlərlə qarşılaşsa da, indi bunlar tamamilə aradan qaldırılıb. Su cəhətdən heç bir çətinlik çəkmir. Texnika ilə təchizat da yetərincədir. Yetişdirilmiş məhsulun satışına da hərtərəfli şərait yaradılıb. O da ailəsi ilə birlikdə bu imkanlardan səmərəli istifadə edir.

Digər bostançı Eldar Sadiqov isə bu il 9 hektar sahədə əkin aparıb. O, bu sahədəki təcrübəsini bizimlə belə bölüşür: “Qarpızı hər yerdə əkmək olmaz. Bu məhsulu gərək ən azı 2 il dincə qoyulmuş torpağa əkəsən. Bu zaman kollar sürətlə inkişaf edər, tağlar da diri qalar. Bu bitkidən yüksək məhsul götürülməsi qulluq işlərinin vaxtında və düzgün yerinə yetirilməsindən asılıdır. Bitkiyə qulluq dedikdə, suvarma, alaqlama, seyrəltmə, dibdoldurma, gübrələmə, tağların kökləndirilməsi, ucvurma, süni, yaxud əlavə tozlandırma, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərini nəzərdə tuturam. Məhsulun yetişməsinəcən, yəni iyunun sonu, iyulun əvvəlinəcən qarpıza 3 dəfə bol su verməlisən. 4-cü dəfə də su vermək olar, amma bu dəfə gərək az verəsən, necə deyərlər, bir növ dadımlıq”.

Müsahibimiz bunu da xüsusilə qeyd edir ki, bir zamanlar xarici ölkələrdən muxtar respublikamıza gətirilən və daha çox böyük çəkisi və gözəl görüntüsü ilə diqqəti cəlb edən qarpızlar sağlamlıq üçün ciddi təhlükə yaradırdı. Çünki onların hamısına vaxtından tez böyüməsi və çəkisinin artıq olması üçün güclü azot gübrəsi verilir. Elə qarpızdan zəhərlənmələrin böyük qismi də məhz belə məhsullardan istifadə zamanı əmələ gəlir. Nehrəmlilər isə kimyəvi dərmanlar əvəzinə təbii gübrələrdən istifadə edirlər. Bizim qarpızın dadının özünəməxsusluğu isə Nehrəmin bərəkətli torpaqları, havası, suyu ilə əlaqədardır.

Yol kənarında olarkən daha bir neçə torpaq mülkiyyətçisi ilə həmsöhbət oluruq. Hər kəs də Nehrəm qarpızının özəlliyini torpağın münbitliyi, havasının və suyunun təmiz olması, bir də ki ona göstərilən qayğı ilə əlaqələndirir.

Elnur Süleymanova isə bu sualı ünvanlayırıq: – Yaxşı qarpız seçmək üçün nələrə fikir verməliyik? Həmsöhbətimiz deyir ki, qarpız alanda böyüyünü seçsəniz yaxşıdır, ancaq çox da iri çəkidə olmamalıdır. Qarpız nə qədər böyük və yüngül olarsa, bir o qədər də dəymiş hesab edilir. Yaxşı qarpızın çəkisi, təxminən, 8-10 kiloqram olmalıdır. Yetişmiş qarpızın qabığının möhkəm və parlaq olması şərtdir. Həmçinin qarpız seçərkən onun qabığını sürtüb iyləmək olar. Əgər bu zaman yeni kəsilmiş ot qoxusu gələrsə, demək ki, qarpız kaldır, hələ tam yetişməyib. Yetişmiş qarpıza əl ilə vurduqda o yay kimi əyilib əlinizi əks etdirməlidir. Əgər dəymiş qarpıza qulağınızı söykəyib vursanız, o zaman təmiz, cingiltili səs eşitməlisiniz.

Yay aylarının sevimli məhsullarından olan qarpız şirəli, sərinləşdirici olub, aclığı və susuzluğu aradan qaldırır. Bu bostan məhsulu olduqca müalicəvi əhəmiyyətə malikdir. Orqanizmi, xüsusən böyrəkləri və qaraciyəri zərərli maddələrdən təmizləyir. Böyrəklərdə duz və daş yığılmasının qarşısını alır. Mütəxəssislər qan təzyiqinin tarazlanmasından, sağlam arıqlamağa qədər çoxlu sayda faydası olan qarpızın yay aylarında bol-bol qəbul edilməsini təklif edir.

Qarpızın qan təzyiqi və ürək funksiyasının yaxşılaşdırılmasına kömək etdiyini, bundan əlavə, xərçəng xəstəliklərinə qarşı da qoruyucu bir təsirə malik olduğunu bildirən Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi Xumar Həsənova bizimlə söhbətində dedi ki, qarpızın orqanizmi təmizləyici xüsusiyyəti var. Çünki tərkibinin 95 faizi sudur. Ona görə də böyrəkləri çox yaxşı işlədir, onda rast gəlinən daş və duzları təmizləyir. Eyni zamanda qumtökmə, daşsalmada da təsirlidir. Bu meyvədə bol B, C vitamini və antioksidant ehtiyatı var. Onda olan likopen maddəsi qan təzyiqini nizamlayır. Tərkibində olan yüksək kalium və beta karoten maddəsi sayəsində ürəyin infarkt xəstəliyindən qorunmasında əvəzsiz təsirə malikdir. Qarpız tam mənası ilə bir şəfa mənbəyidir.

Həkim artıq çəki problemi olanlara da bol-bol qarpız yeməlirini məsləhət görür. Deyir ki, qarpızı, əsasən, yeməkdən sonra qəbul edirik. Lakin bu, doğru deyil. Qarpızı ac ikən yemək ondan maksimum şəkildə faydalanmağı təmin edir. Bu səbəblə qarpızın yeməkdən əvvəl yeyilməsi daha düzgündür.

Dadı və faydaları ilə hər birimizin süfrəsində məxsusi yeri olan Nehrəm qarpızı indi ən çox alınan kənd təsərrüfatı məhsulları sırasındadır. Nehrəmli təsərrüfat sahibləri də yerli bitki sortlarımızın bir nümunəsi olan bu bitkinin genofondunun qorunmasına, əhalinin belə yerli məhsullara olan tələbatının ödənilməsinə öz töhfələrini verməyə çalışırlar.

✍ **Gülcamal TAHİROVA**

## Karateçimiz beynəlxalq turnirdən uğurla qayıdıb



Bu ilin 12-14 iyul tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində karate idman növü üzrə VIII “Istanbul Open” beynəlxalq turniri keçirilib.

30 ölkədən 2000 idmançının təmsil olunduğu turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançısı Rəşid Süleymanov da iştirak edib. Fərdi və komanda hesabı formasında keçirilən yarışda idmançımız 10-11 yaş qrupunda – 40 kq çəki dərəcəsində II yerə layiq görülüb.

Yaşının az olmasına baxmayaraq, bir çox beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edən və uğur qazanan idmançımız növbəti dəfə bu ilin 28-30 sentyabr tarixlərində Bakı şəhərində keçiriləcək karate üzrə “Baki Open” beynəlxalq turnirində iştirak etməyə hazırlaşır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Uyğunlaşdırılmış əyləncəli oyun sahəsində istirahət təşkil olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada bu qəbildən olan uşaqların reabilitasiyası və cəmiyyətə inteqrasiyası ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir.

Bu məqsədlə mövcud infrastruktur yenilənir və müasir avadanlıqlarla təchiz edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsində 20 uşağın istirahəti və əyləncəsi təşkil olunub, onlar üçün Naxçıvan Uşaq Bərpa Mərkəzində çay süfrəsi açılıb. Tədbirdə



valideynlər də iştirak edib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Cəzaçəkmə müəssisəsində profilaktik tibbi müayinələr aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumları profilaktik müayinələrdən keçirib. Müəssisənin tibbi sanitar hissəsinin həkim və orta tibb işçilərinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində bütün məhkumlardan ümumi, hepatit B, C, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülüb. Sonra yüksəkixtisaslı həkimlər tərəfindən müayinələr aparılıb. 24 nəfər USM, 7 nəfər EKQ müayinəsindən keçirilib. 12 kardioloji, 5 nevroloji, 8 göz, 10 uroloji, 10 terapevtik, 9 stomatoloji xəstə tibbi müayinələrlə əhatə olunub. 21 nəfərə diaskin test sınağı qoyulub.

Profilaktik tibbi müayinələr Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən davam etdirilərək 120 məhkum ftiziatr müayinələrindən keçirilib. Aşkarlanan xəstəliklər məhkumların tibbi kitabçalarına qeyd olunub və dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, həmçinin mövsümi xəstəliklər barədə səhiyyə maarifi işləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İşçi əsas iş yerindən əlavə həm də əvəzçilik qaydasında başqa iş yerində işləyə bilərmi?***

***Cavab:*** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 59-cu maddəsinə görə, əmək müqaviləsinin şərtləri imkan verdiyi hallarda işçi əsas iş yeri üzrə müəyyən olunmuş iş vaxtından sonra həm əsas iş yerində, həm də əvəzçilik qaydasında əmək müqaviləsi bağlayaraq başqa iş yerlərində də əmək fəaliyyəti ilə məşğul ola bilər. Bu zaman əvəzçilik üzrə əmək müqaviləsi bağlanan iş yeri işçinin əlavə iş yeri, əmək kitabçası saxlanılan yer isə əsas iş yeri sayılır. Əvəzçilik üzrə əmək müqaviləsi əmək kitabçası təqdim edilmədən bağlanılır. Əvəzçilik üzrə işləyən işçilərin gündəlik normal iş vaxtının müddəti 4 saatdan, həftəlik normal iş vaxtının müddəti 20 saatdan artıq olmamaqla tərəflərin razılığı ilə müəyyən edilir.

İş vaxtından sonra əvəzçilik üzrə əlavə iş yerlərində işləməyə əsas iş yeri üzrə işəgötürənin razılığı tələb edilmir. İş vaxtı ərzində isə əvəzçilik üzrə işləməyə işəgötürənin razılığı ilə yol verilir. Əvəzçilik üzrə əmək şəraitinin şərtlərini, əmək funksiyasının həcmini əlavə iş yerinin işəgötürəni ilə əmək müqaviləsi bağlanarkən tərəflərin özləri müəyyən edirlər.

Əgər işçi əsas iş yerində zərərli, təhlükəli və insanın sağlamlığına mənfi təsir göstərən amillər olan əmək şəraitində işləyirsə, onda onun eyni əmək şəraitli əlavə iş yerində əvəzçilik üzrə çalışmasına yol verilmir. Çünki eyni peşə və vəzifələr üzrə əlavə iş vaxtı işçilərin sağlamlığına mənfi təsir göstərə və yaxud istehsalın təhlükəliliyinə səbəb ola bilər.

Yaşı 18-dən az olan işçilərin əvəzçilik qaydasında əlavə iş yerində çalışmalarına yalnız onların həm əsas, həm də əlavə iş yerində gündəlik iş vaxtının cəmi Əmək Məcəlləsinin 91-ci maddəsində onlar üçün nəzərdə tutulmuş qısaldılmış iş vaxtından çox olmadıqda yol verilə bilər. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və 1-ci, 2-ci qrup əlil olan işçilər üçün, həmçinin hamilə və yaşyarımadək uşağı olan qadınlar və 3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün 36 saatdan artıq ola bilməz.

Əvəzçilik üzrə işləyən işçilərin əməyinin ödənilməsi müəssisənin əmək şəraiti nəzərə alınmaqla faktiki yerinə yetirilən işə müvafiq surətdə aparılır. Əvəzçilik üzrə işləyənlər yerinə yetirdikləri işin və çalışdıqları sahənin növündən asılı olmayaraq, illik ödənilən əsas məzuniyyət, yaxud məzuniyyətdən istifadə etmədikdə kompensasiya almaq, həmçinin məzuniyyətin bütün növlərindən istifadə etmək hüququna malikdirlər. Əvəzçilik üzrə işləyən işçilərin məzuniyyəti əsas iş yeri üzrə məzuniyyətlə bir vaxtda verilir.

Qeyd edək ki, bilavasitə qanunvericilikdə nəzərdə tutulmuş hallarda dövlət hakimiyyəti orqanlarının müvafiq vəzifəli şəxslərinin əvəzçilik üzrə əmək müqaviləsi bağlayaraq əlavə iş yerində işləmək hüququ yoxdur. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununa əsasən dövlət qulluqçuları dövlət orqanlarında əlavə ödənişli vəzifələr tutmaq hüququna malik deyillər.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

### İtmişdir

Babək rayon Didivar kənd sakini Zamanova Zəminə Nəcəfqulu qızının adına olan 218A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 517